


Ukrayna paytaxtı Kiyevdə 36 yaşlı gürcü “qanuni oğru” Mamuka Oniani saxlanılıb.

Ukrayna vətəndaşlığının olmasına baxmayaraq o, profilaktik söhbətdən sonra könüllü olaraq ölkəni tərk edib.

Bundan əvvəl iki dəfə odlu silah saxlamaqda ittiham edilən gürcü Mamuka Oniani kriminal aləmin xaç atası hesab edilmiş Ded Xasana düşmən klanın rəhbərlərindən hesab edilən, azərbaycanlı “qanuni oğru” Rövşən Lənkəranski ilə bu məsələdə həmfikir olan Tariel Onianinin qohumudur.

Hazırda İtaliyada həbs çəkən T.Onianinin qohumu Mamuka nəhayət ki, bu il “oğru ailəsi”nə qəbul edilib. İstanbulda keçirilən “sxodka”da taclandırılan M.Oniani ilə bərabər daha bir neçə nəfər “oğru” adı alıb.


Прайм
КРАЙМ